**Zənfirə Quliyeva**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**UOT:338.1;/006; JEL:Il2**

# Əbdürrəhim bəy Haqverdiyevin əsərlərində iqtisadi motivlər

***Xülasə***

*Məqalədə XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaratmış, Azərbaycan ədəbiyyatında xüsusi yer tutan Ə.Haqverdiyevin əsərlərində iqtisadi motivlər araşdırılır. Qeyd etmək lazımdır ki, Ə.Haqverdiyev yaradıcılığında insanların, ayrı-ayrı sosial qrupların iqtisadi davranışları, meyil və motivləri ədib tərəfindən işıqlandırılır və müvafiq olaraq ədibin apardığı ümumiləşdirmələr, müxtəlif dövrlərdə fərdlərin, sosial qrupların iqtisadi davranışları müqayisəli şəkildə təhlil edilir.*
***Açar sözlər:*** *iqtisadi motivlər, sosial davranışlar, tacir, veksel, sələm*

## Giriş

XX əsrin birinci yarısl Azərbaycan ictimai fikir trixinin qısa, ancaq mürəkkəb və mühüm bir dövrünü əhatə edir. Bu dövrdə Azərbaycan ədəbi-ictimai fikir tarixi bir sıra istiqamətlər üzrə inkişaf edirdi. Burada söhbət inqilabi demokratik, realist-maarifpərvər, romantik ədəbi fikir istiqamətlərindən gedir. Ə.Haqverdiyrv dilçi, yazıçı, dramaturq və publisist olmaqla yanaşı tərcüməçi, ictimai xadim və mütəfəkkir idi. Azərbaycanın realist ədəbiyyatının görkəmli simalarından biri kimi Azərbaycanda realist ədəbiyyatın inkişafında mühüm rol oynamış, eyni zamanda bir zamanlar indiki Bakı Dövlət Universitetində mühazirələr oxumuş, maarifçilik ənənəsini davam etdirmişdir. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında əsas istiqamət kimi dilçilik hesab olunur [5, s.7].

## Ədəbiyyatların təhlili

XIXəsrin sonları və XX əsrin əvvələrinin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Ə.Haqverdiyev yaradıcılığının təhlili və araşdırılması ancaq ədəbiyyatşünasliğın dəyərləri kontekstində aparılmışdır. Tədqiqatçılardan Əziz Şərif, Mir Cəlal, Cəfər Xəndan, Abbas Zamanov, Təhsin Mütəllimov, Məmməd Məmmədov, Kamran Məmmədov , İnqilab Kərimov, Qəzənfər Kazımov Ə.Haqverdiyevin həyat yolu və yaradıcılığının təhlili ilə əlaqədar dəyərli araşdırmalar aparmışlar. Bu tədqiqatlar əsasən ədəbiyyat nəzəriyyəsinin kriteriyaları baxımından aparılmışdır. Ədəbi və pedaqoji fikirləri ilə bağlı Kamal Camalov, Ələddin Məlikov ictimai və fəlsəfi fikirlərinin öyrənilməsi ilə əlaqədar məqalələr müəllifləridir. Lakin görkəmli ədəbin iqtisadi fikirləri ictimai hadisə və proseslər zəminində xüsusi araşdırma mövzusu kimi seçilməmişdir.

## Əbdürrəhim bəy Haqverdiyevin həyatı

Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 1870-ci il mayın 17-də Şuşa şəhərinin yaxınlığındakı Ağbulaq kəndində anadan olmuşdur. Üç yaşında ikən atasını itirən Əbdürrəhim əmisi Əbdülkərim bəyin və daha sonra atalığı Sadiqbəyoun himayəsində böyümüşdür. O, 10 yaşına qədər kənddə qalır [7], daha sonra 1890-cı ildə Əbdürrəhim bəy Haqverdiyev Şuşa realnı məktəbinin altıncı sinfini bitirib, Tiflis realnı məktəbinin axırıncı sinfinə daxil olumuşdur. Burada rus və Avropa klassiklərini öyrənərək, tez-tez teatr tamaşalarına baxırdı. Əbdürrəhim bəy Haqverdiyev 1891-ci ildə Tiflis realni məktəbini bitirib, ali təhsil almaq üçün Peterburqa getmiş, Yol mühəndisliyi İnstitutuna daxil olmuşdur.Ə.Haqverdiyevin öz tərcümeyi halında yazdığı kimi, bir çox səbəblərə görə görə Darülfünun Şərq şöbəsinə keçmiş. 1899 –cu ildə təhsilini tamalayıb Qafqaza qayıtmışdır. Belə bir zəmində qeyd etmək lazımdır ki, gənc yazıçı özünün ilk əsərləri olan “Yeyərsən qaz ətini, görərsən ləzzətini”(1892) və “Dağılan tifaq” (1896) əsərlərini də məhz Peterburqda yazmışdır. 1899-cu ildə vətənə qayıdan dramaturq sonrakı əsərlərini məhz burada yazmışdır. Eyni zamanda Peterburqda olduğu səkkiz il müddətində azad müdavim sifətilə universitetin şərq fakültəsində təhsil alır, dil və ədəbiyyat məsələlərilə ciddi məşğul olur [2]. Daha sonra iki il Şuşada qaldıqdan sonra 1901-ci ildə Bakıya köçmüşdür. Burada üç il müəlimlik etmişdir. 1904-cü ildə yenidən Şuşaya qayıdaraq orada bələdiyyə idrəsi üzvlüyünə daxil olmuşdur. 1906-ci ildə I Dövlət Dumasına Gəncə quberniyasından deputat seçilmişdir. 1906-cı

ildə Duma qovulduqdan sonra Qafqaza qayıdır. Gəncədə məskunlaşır, sonra Ağdama köçür. Zaqfqaziya müstəqil dövlətlərə ayrıldıdan sonra bir müddət Tiflisdə ali-ibtidai məktəbə inspektor təyin olunur, eyni zamanda Gürcüstan parlamentinin azərbaycanlılar tərəfindən göndərilən dörd deputatından biri olur. 1919-cu ildə Xalq Cümhuriyyəti dövründə Bakıya çağrılır[2, II c.,s.401]. Əbdürrəhim bəy Haqverdiyevin "Hacı Daşdəmir", "Dağılan tifaq", "Bəxtsiz ca-van", "Pəri cadu", "Millət dostları", "Kimdi müqəssir?", "Ac hariflər", "Xəyalat", "Qadınlar bayramı", "Ağac kölgəsində", "Köhnə dudman", "Çox gözəl", "Padşahın məhəbbəti", "Sağsağan", "Ağa Məhəmməd şah Qacar" və başqa dram əsərləri diqqəti cəlb edir. Görkəmli ədibin "Ayın şahidliyi", "Ata və oğul", "Şeyx Şəban", "Pir", "Seyidlər ocağı", "Marallarım" və s. hekayələrində də güclü yumor, tənqidi realizm mühüm yer tutur [1]. Görkəmli ədib 1924-cü ildə Rusiya Elmlər Akademiyasının Ölkəşünaslıq Bürosuna müxbir üzv seçilmişdir. "Molla Nəsrəddin"in yazarlarından biri də Əbdürrəhim bəy Haqverdiyev idi. 1933-cü ildə dekabrın 13-də Bakıda vəfat etmişdir.

**Yaradıcılğı**

Ə.Haqverdiyevin ədib mütəffəkir kimi bgaşlıca xüsusiyyətləri diqqəti cəlb edir və bunlara aiddir: o, Azərbaycanda novellanın yaradıcısı və banısıdır; Azərbaycan ədəbiyyatına mühakimə tipli hekayələr gətirmişdir; Azərbaycan ədəbiyyatında silsiliə hekayələr müəllifi kimi də tanınmışdır; Yazıçının hekayələri mövzuca müxtəlifdir. Hekayələrin bir qismində çar hakimiyyəti dövründə yaşayan satqın, yaltaq, ikiüzlü bəylər, xanlar, tacirlər, çinovniklərin acgözlüyü tənqid edilir ("Odabaşının hekayəsi", "Qaban", "Diş ağrısı", "Mirzə Səfər", "Çeşmək", "Pristav və oğru") yazıçının istər dramaturgiyası, istərsə də nəsr yaradıcılığı Azərbaycan oxucusu üçün böyük əhəmiyyət kəsb etməkdədir. Əbdürrəhim bəy Haqverdiyevin "Molla Nəsrəddin" jurnalının səhifələrində gizli imzalarla ("Ceyranəli", "Xortdan", "Həkimi-Nunisəğir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" kimi (1906-1931) yazıları dərc olunmuşdur. Müəllifin "Cəhənnəm məktubları", "Marallarım" silsiləsindən satirik hekayələri, "Mozalan bəyin səyahətnaməsi" kimi əsərləri bu jurnalda dərc olunub [10]. Ümumiyyətlə, Molla Nəsrəddin jurnalı ilk dəfə 1906-cı il aprelin 7-də Tiflisdə nəşr olunmağa başlayıb. 25 il ərzində 3 şəhərdə – Tiflis, Təbriz və Bakıda fəaliyyət göstərən jurnalın bütünlükdə 748 nömrəsi çap olunub. "Molla Nəsrəddin" jurnalı Haqverdiyevin də yaradıcılıq istiqamətlərinin müəyyənləşməsində mühüm yer tumuşdur. Qeyd etmək kazımdır ki, Jurnalın yaradıcısı və ideya rəhbəri Cəlil Məmmədquluzadə "Xatiratım"da yazırdı: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin mücmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam". Belə bir zəmində xüsusi olaraq qeyd etmək lazımdır ki, Əbdürrəhim bəy Haqverdiyev Xortdan, Ceyranəli, Mozalan bəy imzaları ilə jurnalda çıxış etmişdir. Onun "Cəhənnəm məktubları", "Marallarım" silsiləsindən satirik hekayələri, "Mozalan bəyin səyahətnaməsi" kimi əsərləri bu jurnalda dərc olunub [6]. Daha sonra ədibin dünyagörüşü ilə əlaqədar qeyd etmək lzımdır ki, onun özü bu sula cavab verərək, Qruziya qəzetinə məktubda yazırdı "Nəticədə bildirirəm кi, mən həmişə sol sosialist partiyalara rəğbət bəsləmişəm və İndi də o fikirdəyəm, çünкi xalqımın xoşbəxtliyini həmin partiyaların proqramlarının həyata кeçirilməsində görmüşəm [2, II c., s.385-386]. Belə bir mövqeyə münasibət, cəmiyyətdə baş verən hadisə və proseslərə münasibət ədibin bütün əsərlərində hiss olunur. Deyilən fikrin təsdiqi kimi ədibin "Xortdanın cəhənnəm məktubları" povesti maraq doğurur. "Xortdanın cəhənnəm məktubları" povesti ictimai xarakterinə, toxunduğu problemlərə, mövzu aktuallığına və üslubuna görə ədəbiyyatımızın seçilən əsərlərindəndir. Sözügedən əsərdə yazıçı XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan mühitinin bədii portretini yaratmışdır. Əsərdə cəmiyyətdəki ictimai qüsurlar, eybəcərliklər satirik üslubda ifşa olunur.

Ə.Haqverdiyevin silsilə şəklində "Molla Nəsrəddin" jurnalında dərc edilən ikinci əsəri "Mozalan bəyin səyahətnaməsi"dir. Yazıçı bu mövzuda satirik yazıların jurnal səhifəsində dərc edilməsi haqında belə qeyd edir: "Bir dəfə cəm olub "İbrahim bəyin səyahətnaməsi"ndən (Zeynalabdin Marağayi) söhbət edirdik. Burada "Molla Nəsrəddin"in dostlarından Ömər Faiq

Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifov var idi. Bunu da deməliyəm ki, "Molla Nəsrəddin"in cəmi Türküstanda şöhrət və nüfuz qazanmasına səbəb Salman Mümtaz olduğu kimi, Naxçıvan tərəfindəndə Qurbanəli Şərifov səbəb idi. "İbrahim bəyin səyahətnaməsi"ndən söhbət olduqda mən dedim: "Nə olardı, bu kitaba nəzirə bir "Səyahətnameyi "Molla Nəsrəddin" də olaydı. Aya, görəsən, "Molla Nəsrəddin" islam aləmini səyahət etsə, onun başına nə müsibətlər gələ bilər? Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi: Gəlin biz Mozalanı gəzdirək. Ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək. Hər kəs onu özü görüb bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər ki, həqiqətən, bu adam gəlib buraları görüb, bu felyetonları yazmış. Belə də oldu. Birinci felyetonu mən başlayıb Mozalanı Bakıya kimi gətirdim. Bakıdan Məşhədə onu Salman Mümtaz apardı. İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifov gəzdirdi. Beləliklə, "Mozalan bəyin səyahətnaməsi" ortalığa çıxdı". Ədibin "Molla Nəsrəddin"dəki başlıca mövzuları real həyatın və vaxtı keçmiş münasibətlərin tənqidindən ibarətdir. Daha sonra diqqəti Ə.Haqverdiyevin "Marallarım" əsəri cəlb edir. Əsərin kiçik bir parçası onun ideyası və hədəfləri barədə təsəvvürlər yaradır. Ədib yazırdı ki, "Hər yer mənim marallarımla doludur. Gözəl marallarım, göyçək marallarım... Hacı marallarım, kərbəlayı marallarım, məşədi marallarım, molla, rövzəxan, bəy-xan marallarım. Başları qapazlı, üzləri tüpürcəkli marallarım". Bu sözlərlə yazıçı türk (azəri) islam cəmiyyəti insanlarının hüquqsuz vəziyyətini olduca acı sözlərlə qələmə almışdır. Daha sonra qeyd etmək lazımdır ki, hətta sovet dövründə ədibin yazdığı əsərlərinin qayəsini mollanəsrəddinçilik ruhu təşkil edir. Belə bir kontekstdə qeyd etmək lazımdır ki, ədibin "Ağac kölgəsində", "Ədalət qapıları", "Köhnə dudman", "Yoldaş Koroğlu" pyeslərində, "Söhbət", "Diş ağrısı", "İanə" digər hekayələrində Azərbaycan cəmiyyətindəki mənfi qüsurlar tənqid olunur [6].

Bir maraqlı məqama xüsusi olaraq toxunmaq lazımdır ki, Əbdürrəhim bəy demək olar ki, bütün əsərlərində özünün tənəzzül dövrünü yaşayan mülkədar, tacir və digər sosial qrupların həyatından bəhs etmişdir. Müvafiq olaraq cəmiyyətin ciddi islahatlara ehtiyacı olduğu xüsusi olaraq vurğulanırdı. O, kəndli, sadə insan hüquqlarının müdafiəçisi kimi diqqəti cəlb edirdi, Azərbaycan cəmiyyətində yaşayan müxtəlif sosial qrupların həyatına nüfuz edir [2, I c., s.7]. Ədibin "Ata və oğul" hekayəsi bütünlükdə cəmiyyətdə tacir həyatı ilə bağlı müşahidələrə əsaslanır. Burada səslənən başlıca fikirlərdən biri insanın sağ ikən insanlara və cəmiyyətə faydalı olması, əl tutması ideyası üzərində cəmlənmişdir. Əsərdə iki obraz diqqəti cəlb edir. Bunlardan birincisi Hacı Xəlildir ki, atadan-babadan heç nə qalmayan, yetimçilikdən şəhərin tanınmış, varlı tacirlərindən birinə çevrilmiş Hacı Xəlil, digəri isə onun oğlu Əkbərdir ki, atadan ona çox böyük sərvət qalmasına baxmayaraq dustaq həyatına qədər düşdüyü , səfalətə qədər gedən yola yuvrlandığı göstərilir. Müvafiq olaraq Hacı Xəlilin oğlu Əkbərə vəsiyyətinə diqqət yetirək. Burada deyilirdi ki, bacar dünyada hamıya yaxşılıq elə, кöməк istəyən və sənin pənahına qaçanı heç naümid qaytarma, çünкi acizə, mərizə, yoxsula кöməк eləməк yaxı sifətlərin biridir". Oğul! Mən sənə çox dövlət və mülк qoyub gedirəm və bu dövlətin binası mənim savadım olub. Ona görə, bala, övladın olsa bitərbiyə qoyma və elm axtaran fəqir uşaqlarına həmişə кöməк elə. Çünкi onlar oxuyub adam olsalar, sən onlara baxdıqca həmişə şad olub və bu şadlıqdan bir ayrı cür ləzzət aparacaqsan [2, II c., s.12].

Daha sonra Ə.Haqverdiyev Hacı Xəlil haqqında yazırdı: dünyadan elə bir şəxs getmişdi ki, neçə füqəra əlini tutmuşdu, ac qalanları doyurmuşdu. Çilpağa libas vermişdi. Göründüyü kimi, hekayədə Ə. Haqverdiyev formalaşmaqda olan ticarət burjuasiyanın həyatı, iki nəsil üzərində müşahidələr aparır və belə qərara gəlir ki, inkişaf tərəqqi, rifah yolu elmdə, zəhmətdə, ağılı ticarət qaydalarının aparılmasındadır. Bunun əksinə olaraq israfçılıq, əyləncə və s. kimi yollar isə acı sonluqla bitir. Daha sonra ədibin "Ayın şahidliyi" hekayəsi diqqəti cəlb edir. Hekayədə Ə.Haqverdiyev yazırdı, mənim üzümdə siz bir qara görüb onu ləкə hesab edirsiniz. Xeyr, o, qara ləкə deyil, bəlкə mənim ahımın tüstüsüdür кi, əqvami-islamiyyənin hər cəhətdən cəmi millətdən geri qalmağını görüb ciyərimdən çıxardıram!.."[2, II c., s.25]. Ədib yazmış olduğu bu hekayədə türk və islam dünyasının başına gələn müsibətlərdən dərin təssüf hissi keçiriyini dilə gətirir[14,

2020 №2, s.16-22]. Əsərdə mütəmadi olaraq dövriyyədə olan bir çox vergi növləri və maliyyə alətlərinin adları çəkilir. Nümunə kimi veksel anlayışını göstərmək olar. Ümumiyyətlə, Ədibin yaşadığı dövrdə aksizlər fərdi dolayısı vergi idi . ƏDV-dən fərqli olaraq aksizlər kifayət qədər məhdud dairəyə daxil olan əmtəələrə aid edilirdi. Bu əmtəələr aksiz altında olan əmtəələr adlandırılır. Aksiz dolayısı verginin növlərindən biri kimi, dolayısı yolla vergi tutma praktikasında geniş tətbiq olunur. Belə bir vergi tutma növü müxtəlif ölkələrin fərqli fiskal imkanları ilə əlaqələndirilir. Aksizlər Rusiya imperiyasının vergi tutma praktikasında geniş tətbbiq olunurdu. Sovet dövründə əsasən Yeni İqtisadi Siyasət zamanı aksizlər tətbiq olunmuşdur. 1930-1932-ci illərdə vergi islahatları zamanı aksizlər ləğv olundu[8, s.74]. Ə.Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları", "Mozlanbəyin səyahətnaməsi", "Acından təbib" və s. kimi əsərlərində Azərbaycanının Gəncə, Qarabağ, Zəngəzur kimi qəzalarında ticarət-iqtisadi əlaqələr, sələmçilər, din xadimləri və bir sıra digər sosial qruplar haqqında məlumatlar, Azərbaycanın şəhər və kəndlərində insanların həyatı, məşğuliyyəti haqqında məlumatlar diqqəti cəlb edir. Nümunə çün qeyd etmək lazımdır ki, Ə.Haqvedriyev "Xortdanın cəhənnəm məktublarında" yazırdı mən cəhənnəmi həmişə Bакının mədənlərinə oxşar bir şey hesab edirdim və çox vədə də deyirdim кi, cəhənnəm yəqin Bакıda olacaq. Neft quyularının hamısından alov göyə dirəкlənəcəк və günahкarları birbəbir təpəsi üstündə quyulara salacaqlar. Bir də mən belə hesab edirdim кi, cəhənnəm bir böyüк şəhərdir, dəryanın кənarında düşübdür. Təmirat hamısı oddandır. Yananlar istəyirlər кi, özlərini dəryaya atsınlar, bəlкə su onların əzabını azalda, amma olmur. Əziyyətləri birə iki də artır. "Acından təbib" hekayəsi diqqəti cəlb edir. Ədib sözügedən hekayəsində yazırdı ki, Şuşa və İrəvan arasında düşən bir qəzaya Zəngəzur qəzası deyirlər. Bu qəzanın çox yerləri dağlıq və əhalisi də кürdlərdir. Əhalinin peşəsi qaramal saxlayıb, yağ, pendir satıb onunla güzəran etməкdir. İlin səккiz ayını Zəngəzur yollarını qar basar, tərəddüdlər кəsilər. Ancaq dörd ay yollar şənliк olar. Aran tərəкəmələri qoyunlarını oraya, yaylağa aparırlar.[2, II c., .175]. Ədibin "Kapitalizmlə mübarizə" [2, II c., s. 260-266] də diqqəti əlb edir. Hekayə tacir sabiq Ağa Qurbanın başına gələn hadisələr üzərində qurulmuşdur. Təxmini olaraq hekayədə əmlakı müasdirə olunmuş bir tacirin əhvalatı diqqəti cəlb edir. Tacir kapitalizmlə mübarizə adi altında öz evi və dükanını geri qaytarmaq istəyir, bunun üçün isə hətta o, bir sıra sovet idarəetmə oraqnlarına da şikayətlərlə müraciət etsə də, ancaq ələ salınır, sözün əsil mənasında nə baş verdiyini tam olaraq dərk edə bilmir. Belə bir vəziyyət ancaq ticarətlə məşğul olan Azərbaycan tacirinin inqilab dövründə başına gələn traqikomediya kimi dəyərləndirilə bilər. Bu tragi komediyada baş verən dövrün təlatümlərin insan həyatını necə dəyişdiyi, bir növ silkələndiyi gerçəkliyi xüsusi olaraq vurğulanır. Qeyd etmək yerinə düşərdi ki, Ə.Haqverdiyevin yaradıcılığında insanın əxlaqi fəzilətlərinin ifadəsi əxlaq subyektinin əməyə münasibətində özünü daha qabarıq göstərir. Ədibin əxlaqi görüşlərinə görə, rifah içində yaşamaq, maddi və mənəvi nemətlərdən yararlanmaq istəyən hər kəs bu maddi nemətlərin yaradılma prosesinin iştirakçısı olmalıdır. Əks halda, həmin insan tüfeyli və avaradır, onun hansısa əxlaqi fəzilətlərə malik olması mümkün deyildir. "Bəxtsiz cavan" faciəsinin qəhrəmanı Fərhad bəy bu prinsiplərdən çıxış edərək deyir: "Özgənin zəhməti ilə çörək yeyənlərə müftəxor deyərlər. Hər bir maarifçi kimi Ə.Haqverdiyev də ilk növbədə sosial bəla kimi dəyərləndirdiyi rüşvətxorluq məsələlərinə toxunmuşdur. Burada ədibin tənqid hədəfi iki istiqamətlidir. O, bir tərəfdən dövlət idarəetmə orqanlarında mövcud qüsurları tənqid edirsə, digər tərəfdən rüşvətxorluğu insanın əxlaqi pozğunluğu kimi nəzərdən keçirir. Bu baxımdan kiçik həcmli "Pristav və oğru" pyesi (ədib özü əsəri "Mükalimə" adlandırır) xüsusi maraq doğurur [3, №;4(67), 2020, s.62]. Bir daha qeyd edilməsi zərurəti hiss olunur ki, Ə.Haqverdiyev yaşdığı dövrdə insanların, ayrı–ayrı sosial qrupların davranış və meylləri, onların iqtisadi mötivləri üzərində müşahidələr apraraq həmin əsərləri qələmə almışdır. Müvafiq olaraq Ə. Haqverdiyevin "Pir" hekayəsi diqqəti cəlb edir.Hekayədə diqqəti cəlb edən cəhət kapital dünyasında pulun nə qədər əhəmiyyətli olması, insanların onları əldə etməsi üçün hətta dini inancları itismar etməsindən belə çəkinməmələri məsələsi idi.

**Nəticə**

Ə.Haqverdiyevin əsərlərində millətin istismarına qarşı ciddi bir etiraz səsi ucaldılr.Onun əsələrində sankı feodal cəmiyyətinin qalıqlarına, cəhalətə qarşı mübarizəyə çağırış var. O, məişət drammaturgiyasının sərhədlərini genişləndirmiş, öz əsərlərinin sosial məzmununu dərinləşdirmişdir. Burjuan-mülkədar quruluşunun nöqsanlarını tənaid etmişdir. Öz dəyərli fikirlrinə görə Azərbaycan ictimai fikrini, o cümlədən iqtisadi düçncə tərzini xeyli zənginləşdirmişdir.

**Ədəbiyyat**


1. Camalov K., Ədəbi-ictimai və pedaqoji fikir tariximizdə müstəsna yer tutan ədib - Haqverdiyev-150//https://525.az/news/135788-edebi-ictimai-ve-pedaqoji-fikir-tariximizde-mustesna-yer-tutan-edib-haqverdiyev-150
2. Haqverdiyev Əbdürrəhim bəy Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səh; II cild. Bакı, "Lider nəşriyyat", 200 S.401
3. Hüseynov S., Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığında əxlaq məsələləri, "Din və dövlət", №;4(67), 2020, s. 58-64
4. Xəlilov N.Q, AX nə gözəl olardı bu ay danışsaydı (Əbdürrəhim bəy Haqverdiyev, Bakı Universitetinin Xəbərləri (Humanitar elmlır seriyası), 2020 №2, s.16-22
5. Məlikov Ə., Əbdürrəhim bəy Haqverdiyevin ictimai və fəlsəfi fikirləri, "Elm" ( qəzeti) 11 dekbar 2020.
6. Məmmədli N, "Molla Nəsrəddin"in Haqverdiyev naxışı,Mədəniyyət, 2021 10 noyabr/ https: // medeniyyet.az / page/ news/53514/Molla-Nesreddinin-Haqverdiyev-naxisi.html
7. Paşayev Mir Cəlal, Hüseynov F., XX əsr Azərbaycan ədəbiyyatı .Maarif, Bakı 1982, s. 165
8. Лазурина О. М. Налоги и налогообложение:Учебное пособие. – Ярославль: МФЮА, 2014. – 220 с
9. Намазова С., « Путевых заметок Мозаланбека Написанная Абдуррагим бека Ахвердиевым //Ученые записки Таврического национального университета им В.И. Вернадского Серия Филология Социальные, Коммуникации, Том 25 (64). No 2,ч. 2. 2012 г. , С, . 148–15
10. https://medeniyyet.az/page/news/53514/Molla-Nesreddinin-Haqverdiyev-naxisi.html


***Зенфира Гулиева***

***Экономические мотивы в творчестве Абдуррагим бека Ахвердиева***

***Резюме***

*В статье исследуются экономические мотивы в творчестве А. Ахвердиева. А.Ахвердиев жил в конце XIX - начале XX веков и занимал особое место в Азербайджанской литературе. В произведениях А.Ахвердиева освещается экономические поведения, стремлении и мотивы людей и различных социальных групп. Привлекает внимания авторские обобщения, сравнительный анализ экономических поведений индивидов и социальных групп которые жили в разные периоды истории*

***Ключевые слова:*** *экономические мотивы, социальные поведения, купец, вексель, ростовшик*

***Zanfira Quliyeva***

***Economic motives in the work of Abdurragim bey Akhverdiev***

***Resume***

*The article investigated the economic motives in the work of A. Akhverdiev lived in the late 19th - early 20th centuries and occupied a special place in Azerbaijan literature. The works of A. Akhverdiev highlight the economic behavior, aspirations and motives of people and various social groups. İn attention is drawn to the author's generalizations, a comparative analysis of the economic behavior of individuals and social groups who lived in different periods of history.*

***Key words:*** *economic motives, social behavior, merchant, bill of exchange, moneylender*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.08.2022.***
***Çapa qəbul olunub: 17.08.2022.***